YENİ TƏFƏKKÜR Yüksəlişə doğru yo

24 oktyabr 2025-ci il



# Gəlimli-gedimli dünya

Şahsuvarın ölüm xəbəri ildırım sürəti ilə yayıldı və elə həmin andaca sosial şəbəkələrdə barəsində xoş sözlər, təəssüf dolu fikirlər paylaşmağa başlandı. Sosial şəbəkə istifadəçilərinin demək olar ki, əksəriyyəti onun tələbə yoldaşları idi.

İnanmadım bu xəbərə, dərhal Şərqiyyə xanıma-Şahsuvarın böyük bacısına, mənim isə tələbə yoldaşıma zəng vurdum. Telefonun o başından Şərqiyyə xanımın fəryadını eşitdim:

*Divarım, qalam qardaş,*
*Dərdinə qalam, qardaş.*
*Top atıldı, bürc sındı,*
*Uçuldu qalam, qardaş!*

Elə həmin andan ürəyimdə dərin bir boşluq yarandığını hiss etdim...

İnasan var, tanıdıqca heyran, insan da var, tanıdıqca peşiman olursan. Mən Şahsuvarı 1974-cü ildə Şuşada tanıdım. Hər ikimiz Şuşa Pedaqoji Məktəbində oxuyurduq-mən IV kursda, o isə I kursda idi. Bir il yataqxanada eyni otaqda qaldıq, dostlaşdıq, qardaş münasibətində olduq.

Tanışlıq üçün deyək ki, Rüstəmov Şahsuvar Musa oğlu 1957-ci il dekabr ayının 19-da Cəbrayıl rayonunun Mehdili kəndində anadan olub. Ailə 9 nəfərdən ibarət idi. Şahsuvar ailənin üçüncü övladıydı. O, səkkizinci sinfi nümunəvi qiymətlərlə bitirib 1975-1978-ci illərdə Şuşa Pedaqoji Məktəbində ibtidai sinif müəllimi ixtisası üzrə təhsil almışdı. İki il kənd məktəbində müəllim işlədikdən sonra Sovet ordusu sıralarında xidmət etmişdi. Əsgərliyini başa vuraraq doğma kəndinə qayıdıb pedaqoji fəaliyyətini davam etdirmişdi. Ailə həyatı qurmuşdu. iki övladı və bir nəvəsi var. O, ailədə çox gözəl tərbiyə almışdı, şit hərəkəti, yersiz zarafatı xoşlamırdı. Özü haqqında danışmırdı, danışanlardan da xoşu gəlmirdi. Etibarlı dost, sədaqətli yoldaş idi. Heç kimi darda qoymazdı, cəsarətliydi, qorxmaz idi, son dərəcə mərhəmətli, alicənab və rəhmdil insan kimi tanınırdı. Sözü üzə deməyi bacarırdı. İndiki dövrdə hər adam sözünü üzə deyə bilmir. O, adamlar deyə bilirlər ki, onların heç kimin yanında qəbahəti yoxdur.

Şərqiyyə xanımın dediklərindən: -Allaha çox şükür ki, ata-ana tərbiyəsi görmüşük. Atam Mehdili kəndində hörmətli, sözükeçən, ağır təbiətli kişilərdən biri olub. Ailədə 9 uşaq olmuşuq. Atam bizi halal zəhməti ilə böyüdüb-boya-başa çatdırıb. İndi də Musa kişi deyəndə tanıyanlar onu mərdanə, alicənab, səxavətli kişi kimi xatırlayırlar. Bu cür keyfiyyətlər atamızdan keçib bizə. Biz belə böyümüşük; insan rəhmli olar, əliaçıq olar, yıxılana söykək durar, nə bilim, ac qarınları doyurar, fitrə-zəkat paylayar. İndi də atamızın tərbiyəsidi bizi başıuca edən, bizi yaşadan.

Ailənin ilk aldığı zərbə ailənin başçılarına-ata-anaya dəydi. Onlar dünyalarını dəyişdilər, lakin ailənin qalan üzvləri büdrəmədi, valideynlərindən aldıqları tərbiyə onları el-



oba içərisində daha da mətinləşdirdi. Valideynlərinin ölümündən sonra onlar əyilsəydilər çox qapıdan keçərdilər, amma onlar dik durmağı seçdilər. Kişi cibdən kasıb olar, əsas odur ki, qeyrətdən kasıb olmasın. Kişi üçün qan qrupunun fərqi yoxdur, əsas qanı kişi qanı olsun. Dəyər vaxtında bilinməlidir, məzar nə bilir çiçək nədir?

Növbəti ən ağır zərbə daha sarsıdıcı, daha dözülməz oldu. Ailənin istəklisi Şahsuvar müəlim dünyasını dəyişdi. Son illər Ukraynada yaşayırdı. Rusiya-Ukrayna müharibəsi zamanı yerli sakinlər kimi çox əziyyət çəkmişdi, elə orada da dünyasını dəyişdi. Bu ağrılar onun qardaş və bacılarının, həyat yolaşının və övladlarının xoşbəxt həyatlarına qara bulud kimi çökdü. Bütün bu ağrıları Şahsuvar müəllimin böyük bacısı Şərqiyyə xanımın dilindən eşitmək mənim üçün dözülməzdir.

Yeri gəlmişkən, deyim ki, dünyada yaxşı insanlar çoxdur, amma biz onların hamısını tanımırıq. Biz o şəxslərin dəqiq qiymətlərini veririk ki, onları yaxından tanıyırıq. Şahsuvar müəllimi ən yaxşı tanıyanlardan biri, bəlkə də birincisi kimi onda aşağıdakı keyfiyyətləri "kəşf etmişdim"-yaxşılıq, xeyirxahlıq, ədalət, həqiqət - bunlar onun həyatının mənası idi.

Şahsuvarın özəl xüsusiyyətlərindən biri də özünü gözəl tanımasıydı. O, əməlləri ilə ictimai həyatda özünü təsdiqləyən ziyalı idi. İnsanlara qarşı sevgi, humanizm, alicənablıq, rəhmdillik onun həyatını rövnəqləndirən amillər idi. Şərəfi və şəxsiyyəti arasında harmoniya olan bu şəxsin həyatına və əməllərinə hansı prizmadan yanaşırsansa yanaş, fərq eləməz, göz önündə bütün möhtəşəmliyi ilə bir kişi obrazı canlanır. Arxada qalan, tarixləşən illərdən boylanan bir ömrün (mən burada yarımçıq bir ömrün" ifadəsini də yaza bilərdim. Yazmadım, ona görə ki, Şahsuvar müəllim 68 ildə bütöv, kamil bir kişi ömrü yaşadı) müəyyən anlarına güzgü tutduqda görürük ki, əsl insan dünyanın əzəlliyini özündən, gözəlliyini də gözündən keçirməli, dünəni ilə fərx etməli, bu gününü şərəflə yaşamalı, sabahını düşünməlidir - onun həyat amalı belə olub, çox təəssüflər olsun ki, sabahını düşünməyə əcəl imkan vermədi...

...Şahsuvar müəllim ağıllı, dərrakəli ziyalı idi və belə hesab edirdi ki, insanları yaşadan adlar, titullar deyil, onların əməlləridir. Onun fikrincə, insanlara hörmət, ətrafdakılara qiymət ilk növbədə özünüdərkdən keçir. Özünü tanımayan, özünə qiymət verməyi bacarmayan şəxs yaşından asılı olmayaraq ictimaiyyət arasında birmənalı qarşılana bilməz. Bu baxımdan, Şahsuvar müəllim öz simasını qoruyub saxlayırdı. Belə xüsusiyyətin nəticəsi idi ki, Şahsuvar heç kimin yanında gözükölgəli deyildi. O, hamının yanında şax gəzməyə, şux yeriməyə haqqı olan kişi idi. Yüksək əxlaqi keyfiyyətinə görə hamı onu sevirdi.

Xalq ancaq sevdiyi insanı yaddaşında saxlayar...

Şahsuvar müəllimin ölümü bircə an da olsun Şərqiyyə xanımı tərk etmir. Qohum-əqraba, dostlar yanında özünü təmkinli aparmağa çalışan Şərqiyyə xanım qardaşının yoxluğu ilə barışa bilmir. Şahsuvarın adı gələndə odsuz-ocaqsız yanır, tək olanda göz yaşları ilə boğula-boğula həmdəmi bayatılar, ağılar olur:

*Ağlaram, ağlar kimi,*
*Dərdim var, dağlar kimi.*
*Xəzəl ollam, tökülləm,*
*Viranə bağlar kimi.*

Şərqiyyə xanımla tez-tez telefon əlaqəsi saxlayıram. Telefonun o başında hiss edirsən ki, dərdini ağrıya-ağrıya, göz yaşı tökə-tökə danışır. Özünün müqəddəs dərdini köksünə sıxıb, göz yaşları üzü aşağı sellənən bu xanımın dərdinə məlhəm olacaq söz tapmaq çətindir. Sözün insan vücudunu titrədən təsir gücündən özümə gəlib təsəlli verə bilmirəm bu xanıma. Nə deyim, necə deyim axı, onun qubar bağlayan könlünə təsəlli olsun?! Təsəlli vermək də olmur. Bilmirəm indi deyəcəyim əhvalat Şərqiyyə xanıma qismən də olsa, təsəlli ola biləcəkmi?!

Belə deyirlər ki, qədim zamanlarda uzun illər övlad həsrətində olan mehriban ailədə bir oğlan uşağı dünyaya gəlir. Ananın da, atanın da fərəhi yerə-göyə sığmır. Onlar uşağın üstündə əsim-əsim əsirlər. Oğlan bir yaşı haqlayanda ata-ana, qohum-əqraba əl-ayağa düşür. Qurbanlar kəsilir, məclis qurulur. Qazanlar asılır. Başbilənlər, ağsaqqallar, ağbirçəklər çağrılır. Uşağa ad qoymaq qərarına gəlirlər.

Məclisin qızğın vaxtında, yemək-içməyin şirin yerində ana xörək dalınca bayıra çıxır. İsti qaynar su ilə dolu qazana yaxınlaşanda gözlərinə zülmət çökür, dizləri uçunur. Görür ki, ciyərparası pıqhapıq qaynayan qazanın içinə düşüb ölüb. Ana bu dəhşətli faciədən sarsılsa da, özünü ələ alır, cəld qazanın ağzını örtür. Heç kimə heç nə bildirmir. Qonaqları el adətincə yola salırlar. Hamı dağılışandan sonra qadın üzünü qonaqları ötürüb dağ aşağı geri qayıdan ərinə tutur, ucadan yanıqlı səslə bu bayatını deyir:

*Əziziyəm, odumu,*
*Dağdan gələn odumu?*
*Su od keçirən olur*
*Su yandırdı odumu...*

...Oktyabr ayının 26-da Şahsuvar müəllimin qırx mərasimidir. Qırx gündür ki, ürəyimi əzən sözləri ortalığa qoya bilmirəm... fikrim çox qarışıqdır. Şahsuvardan sonra hələ heç nə yaza bilməmişəm. Amma onu deyə bilərəm ki, Şahsuvarın üzündə nur vardı. Bu nurun, bu işığın başına çox insanlar toplaşdılar, dostlaşdılar. Bu işıqda həyat vardı, gələcəyə inam vardı. Bu işığın şöləsindən nur yağırdı. Bu işıq insanların çöhrəsində bərq vurur, bu işıq adamın özünü də, simasını da işıqlandırırdı... Və gözlənilmədən bu İşıq adamın gözlərindəki həyat işığı birdəfəlik söndü. Doğmalarına, yaxınlarına isə can yanğısı, iztirab qaldı...

...Nur içində uyu, Nurlu Oğlan! İşıqlı Kişi! İşıq Adam! Əvvəllər Tanrı sənin üzünə nur çiləyirdi, indi isə məzarının üstünə işıq saçır.

Nur çələngi, işıq seli, ürəyi insanlara sevgi ilə dolu bir Dost-Qardaş Tanrı dərgahına üzüağ getdi. Ana torpaq, bir əziz balasını da ağuşuna alıb hönkür-hönkür ağladı.

Torpağı yüngül, məkanı cənnət olsun!

Faiq Şükürbəyli,
AJB və AYB-nin üzvü